**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**Azərbaycan Respublikasının**
**elm və təhsil nazirinin**
3-2 S/3-2-543F/2025/1 **nömrəli** 08.09.**2025-ci il tarixli**
**əmri ilə təsdiq edilmişdir.**

ƏSLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARA XİDMƏT VƏ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L  P R O Q R A M I

**İxtisasın şifri və adı: 7004008 - Menecment**

**BAKI - 2025**

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ TƏHSİL PROQRAMININ ÇƏRÇİVƏ SƏNƏDİ

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin **7004008 - Menecment** ixtisası üzrə təhsil proqramı (bundan sonra - təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrilə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ***ümumi səriştələrə*** yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;

- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.

2.2. Təhsil proqramının sonunda **7004008 - Menecment** ixtisasının ***ixtisaslaşmaları*** üzrə məzun aşağıdakı ***peşə səriştələrinə*** yiyələnməlidir:

**2.2.1 Strateji menecment ixtisaslaşması üzrə**

- korporativ, biznes və funksional səviyyələrdə strateji qərarlar qəbul edə bilmək;
- strateji planlaşdırma proseslərinin icrasına nəzarəti həyata keçirmək və zərurət yarandığı halda strateji dəyişikliklər etmək;
- davamlı inkişaf strategiyaları hazırlamaq və icrasını təmin etmək;
- qısamüddətli və uzunmüddətli planlarla rəqabət üstünlüyü təmin etmək;
- strateji təhlillərə əsaslanmaqla qərar qəbul etmək;
- strateji dəyişikliklərin icrasını təmin etmək;

**2.2.2 İnnovasiya menecmenti ixtisaslaşması üzrə**

- texnoloji, bazar və normativ meylləri təhlil edərək innovasiyaların tətbiq olunması mümkün olan sahələri müəyyən etmək;
- korporativ strategiyaya və maraqlı tərəflərin (stakeholder-lərin) ehtiyaclarına uyğun innovasiya planları hazırlamaq və onların həyata keçirilməsinə nəzarət etmək;
- minimal işlək məhsullar (MVP), A/B testləri və prototiplər vasitəsilə eksperimentlər planlaşdırmaq və icrasına nəzarət etmək;
- dizayn düşüncəsi (design thinking) və digər tədqiqat yanaşmalarnı istifadə edərək biznes modelləri hazırlamaq;
- patent, kommersiya sirri (Know-How), lisenziya kimi intellektual mülkiyyət strategiyalarını seçmək və kommersiyalaşdırma planına uyğunlaşdırmaq;
- təşkilatda innovativ yanaşmaların motivasiya sistemini formalaşdırmaqla innovasiya layihələrinin tətbiqinə nəzarət etmək;
- innovasiya inkişaf planlarını hazırlamaq və onların həyata keçirilməsinə rəhbərlik etmək;

**2.2.3 Layihə menecmenti ixtisaslaşması üzrə**

- layihənin idarə olunması ilə bağlı münasib metod müəyyən etmək və onun tətbiqinə nəzarət etmək;
- layihənin mövcud tələblərə uyğun hazırlanmasına nəzarət etmək;
- layihələrin vaxt və büdcə parametrləri üzrə icrasını təmin edə bilmək;
- layihənin texniki, maliyyə və institutsional tələblərə uyğunluğunu təmin etmək;
- layihə üçün potensial riskləri müəyyənləşdirmək və risk azaldıcı planlar hazırlamaq;
- layihə üzrə maraqlı tərəflərlə kommunikasiya strategiyalarını hazırlamaq;
- layihənin icrası zamanı keyfiyyət standartlarına nəzarəti təmin etmək;
- layihənin nəticələrinə dair rəy vermək;

**2.2.4 İdman menecmenti ixtisaslaşması üzrə**

- idman layihələri və tədbirləri üçün konsepsiya hazırlamaq, onları büdcələşdirmək, marketinq planı və menecment strategiyası ilə birlikdə təqdim etmək;

- rəqəmsal texnologiyalardan və məlumat analitikası vasitələrindən istifadə etməklə idman bazarının təhlili əsasında strateji qərarlar vermək;
- idman tədbirləri, sponsorluq müqavilələri və maliyyə strategiyalarını əsaslandırmaq;
- idman təşkilatlarında idarəetmənin effektivliyini yüksəltmək üçün müasir idarəetmə alətlərindən istifadə istiqamətlərini müəyyən etmək və onun icrasını reallaşdırmaq;
- idman müəssisələrinin strukturunu, fəaliyyətini və bazar mövqeyini təhlil etməklə strateji qərarlar vermək;
- qlobal idman tendensiyalarını nəzərə almaqla adekvat strategiyalar hazırlamaq;

**2.2.5 Kənd təsərrüfatı və qida sistemlərinin menecmenti ixtisaslaşması üzrə**

- aqrar-qida sektorunda dayanıqlı biznes planları və innovasiya strategiyaları hazırlayıb həyata keçirmək;
- qida dəyər zəncirinin keyfiyyətli idarə olunmasına nəzarət etmək;
- qida təhlükəsizliyi və keyfiyyət proseslərini izləmək;
- məhsul nüfuzunu artırmaq və yeni bir qida məhsulunun təqdimatı üçün marketinq planları hazırlamaq;
- xüsusilə davamlı inkişaf məqsədlərinə istinad etməklə, qida sektorunda strateji məqsədlərə çatma səviyyəsini ölçmək;
- davamlı kənd təsərrüfatı, qida təhlükəsizliyi və kənd yerlərinin inkişafını dəstəkləmək üçün konsepsiyalar formalaşdırmaq;

**2.2.6 Təhsil menecmenti ixtisaslaşması üzrə**

- təhsil müəssisələrinin maliyyə planlaşdırılmasını, büdcə tərtibini və maliyyə resurslarının səmərəli idarə olunmasını təmin etmək;
- təhsil proqramlarının və layihələrinin planlaşdırılmasına və icrasına nəzarət etməklə nəticələrini qiymətləndirmək;
- təhsil müəssisəsinin missiyası, məqsədləri, KPI-larına əsaslanaraq strateji planlar hazırlamaq;
- tədrisin keyfiyyətini yüksəltmək üçün kurikulumun və qiymətləndirmənin təhsil standartları ilə uzlaşdırılmasına nəzarət etmək;
- kadr təminatı, satınalma və infrastruktur kimi məsələlərə nəzarət etmək;
- elmi-texniki trendlərə uyğun yeni təhsil konsepsiyaları təklif etmək;

**2.2.7 Risk menecmenti ixtisaslaşması üzrə**

- təşkilata təsir edən daxili və xarici risk amillərini müəyyənləşdirməklə fəaliyyət mühitini qiymətləndirmək;
- risk matrisləri və simulyasiyalardan istifadə etməklə risk qiymətləndirməsi aparmaq;
- təşkilat məqsədlərinə uyğun olaraq risk idarəetmə strategiyaları seçmək və tətbiq etmək;
- strateji, investisiya və əməliyyat planlaşdırmasında risklərin nəzərə alınmasını təmin emək;
- simulyasiya və proqnoz modelləşdirməsi vasitəsilə ehtimali riskləri müəyyən etmək və qabaqlayıcı tədbirlər təklif etmək;
- müxtəlif alətlərdən istifadə edərək risk monitorinqini həyata keçirmək və hesabat nəticələri barədə maraqlı tərəfləri məlumatlandırmaq;

**2.2.8 İnsan resursları menecmenti ixtisaslaşması üzrə**

- kadr seçimi, işə qəbul, adaptasiya və peşəkar inkişafla bağlı strategiyalar formalaşdırmaq və icra etmək;

- insan resurslarının fəaliyyətinə nəzarət mexanizmləri müəyyən etmək və monitorinqlər keçirmək;
- insan resurslarının fəaliyyət göstəricilərinə görə xidməti fəaliyyətini qiymətləndirmək;
- insan resurslarının idarə edilməsi sahəsində təşkilati strategiyalar tətbiq etməklə təşkilatın ümumi məqsəd və strategiyası ilə uyğunlaşdırmaq;
- insan resursları analitikasında əsas fəaliyyət göstəricilərindən (KPI) istifadəyə nəzarət etmək;
- təşkilati strukturun optimallaşdırılması ilə bağlı təkliflər vermək;
- insan resurslarının motivasiyası ilə bağlı tədbirlər görmək;
- insan resurslarının təlim və inkişaf proqramlarını müəyyən etmək və icra etmək;

**2.2.9 İnformasiya menecmenti ixtisaslaşması üzrə**

- müasir informasiya sistemlərini (ERP, CRM, MIS və s.) idarə etmək;
- data analitikası və qərarvermə proseslərinə informasiya əsaslı yanaşma tətbiqinə nəzarət etmək;
- məxfi məlumatların qorunmasını və informasiya təhlükəsizliyini təmin etmək;
- rəqəmsal transformasiya və informasiya sistemlərinin təşkilat strategiyasına inteqrasiyasına nəzarət etmək;
- yeni informasiya texnologiyalarının (bulud texnologiyaları, AI, IoT və s.) imkanlarından istifadə istiqamətlərini müəyyən etmək;
- informasiya menecmenti ilə bağlı qanunvericilikdə müəyyən olunmuş tələblərin yerinə yetirilməsinə nəzarət etmək.

**2.2.10 Korporativ menecment ixtisaslaşması üzrə**

- maraqlı tərəflərin gözləntilərini müəyyənləşdirməklə korporativ mühiti təhlil etmək;
- resursları bizneslər üzrə bölüşdürmək;
- birləşmə və satınalmaları (M&A) həyata keçirə bilmək;
- satış və strateji tərəfdaşlıq planları ilə bağlı təkliflər vermək;
- effektiv idarə heyəti və komitə strukturlarını qurmaqla idarəetmə və nəzarət sistemlərini təşkil etmək
- əsas fəaliyyət göstəriciləri (KPI) müəyyən etməklə motivasiya sistemlərini strateji məqsədlərə uyğunlaşdırmaq;
- korporativ riskləri azaltmaq üçün həyata keçirilən tədbirlərə nəzarət etmək;
- şirkət daxili mədəniyyəti formalaşdırmaq və təşkilati strukturları dizayn etmək;
- müxtəlif auditoriyalar üçün hesabat, məlumat və təqdimat hazırlanmasına nəzarət etmək;

**2.2.11 Rəqəmsal menecment ixtisaslaşması üzrə**

- rəqəmsal texnologiyaların təşkilatlarda tətbiq sahələrini müəyyən edə bilmək;
- rəqəmsal texnologiyaların idarəetmədə təsirini qiymətləndirməklə rəqəmsal transformasiya konsepsiyaları formalaşdırmaq;
- rəqəmsal trendləri araşdırmaq və onların təşkilatın fəaliyyətinə təsirini qiymətləndirmək;
- bazar trendlərini, rəqəmsal biznes və rəqabət mühitini qiymətləndirmək;
- təşkilati dəyişikliklər və texnologiya tətbiqi kimi rəqəmsal transformasiyaları idarə etmək;
- rəqəmsal biznes modelləri formalaşdırmaq və tətbiqinə nəzarət etmək;
- rəqəmsal sahibkarlıq sahəsində ideya generasiyası və prototipləməyə nəzarət etmək;

- rəqəmsal menecmentdə kibertəhlükəsizlik və məlumatların qorunmasını təmin etmək;

**2.2.12 İstehsal və əməliyyat menecmenti ixtisaslaşması üzrə**

- təşkilatın istehsal və əməliyyat fəaliyyətinin planlaşdırılmasına nəzarət edə bilmək;
- istehsal və əməliyyat fəaliyyəti sahəsində layihələrin icrasına nəzarət etmək;
- istehsal prosesləri və əməliyyat sistemlərini optimallaşdırmaq;
- materialların, avadanlıqların və digər resursların istifadəsini optimallaşdırmaq;
- keyfiyyətin idarə olunması alətlərinin tətbiqi ilə məhsul və xidmət səviyyəsini yüksəltmək;
- istehsal sahəsində potensial təhlükələri müəyyənləşdirmək və onları minimuma endirmək üçün tədbir görmək;
- yeni texnologiyaları tətbiq etmək və dəyişiklikləri idarə etmək;
- təşkilatın istehsal və əməliyyat fəaliyyətinin idarə edilməsini təkmilləşdirmək;

**2.2.13 Turizm menecmenti ixtisaslaşması üzrə**

- turizm müəssisələri, ofisləri və ya agentliklərində heyəti effektiv idarə etmək;
- turizm bazarını, turist axınlarını, trendləri, rəqibləri və sektoru təhlil etməklə yeni həllər ortaya qoymaq;
- turizm müəssisələrində maliyyə, marketinq və əməliyyat menecmenti prinsiplərini effektiv şəkildə tətbiq etmək;
- dayanıqlı turizm məhsullarının yaradılması və təbliği sahəsində innovativ həllər təqdim edə bilmək;
- turizm destinasiyalarının idarə olunması, regionların turistik cəhətdən inkişaf etdirilməsi və brendinqi;
- beynəlxalq turizm təşkilatları (UNWTO, IATA, WTTC və s.) və onların normativləri ilə işləmək.

**2.2.14 Qonaqpərvərlik sənayesinin idarə edilməsi ixtisaslaşması üzrə**

- qonaqpərvərlik əməliyyatlarını idarə etmək;
- qonaqpərvərlik sahəsində müştəri məmnuniyyəti və xidmət keyfiyyətini təmin etmək;
- qonaqpərvərlik sənayesində xərc və gəlirləri idarə etmək;
- qonaqpərvərlik sənayesində marketinq və satış proseslərini idarə etmək;
- qonaqpərvərlik sənayesində mədəniyyətlərarası münasibətlərə nəzarət etmək;
- qonaqpərvərlik sənayesində strateji və dayanıqlı idarəetmə qərarları qəbul etmək;

**2.2.15 Musiqi menecmenti ixtisaslaşması üzrə**

- musiqi bazarının əsas trendləri və kommersiya modelləri əsasında repertuar strategiyası qurmaq;
- musiqi layihəsi üçün büdcə tərtibinə nəzarət etmək;
- ifaçı və ya musiqiçi karyerasını (tanınması, brendlərin yaradılması, müqavilələrin hazırlanması və s.) idarə etmək;
- rəqəmsal musiqi platformaları ilə (Spotify, Apple Music, YouTube Music musiqi yayımı və s.) kommunikasiya və əməkdaşlığı təmin etmək;
- musiqi tədbirlərinin təşkili və koordinasiyasına nəzarət etmək;
- yeni orijinal ideyalar vermək, konsertlər, festivallar, albom təqdimatları və digər musiqi tədbirləri hazırlamaq;
- musiqi kontentini fərqli auditoriyalara uyğunlaşdırmaqla təqdim edə bilmək;

- studiya proseslərinin (musiqi yazısı, prodüserlik işləri və s.) idarə olunmasına nəzarət etmək;
- musiqiçilər üçün media və dinləyicilərlə düzgün kommunikasiya strategiyası işləyib hazırlamaq;
- peşəkar fəaliyyətində müəllif və ifa hüquqlarının qorunmasına nəzarət etmək.

**2.2.16 Teatr menecmenti ixtisaslaşması üzrə**

- teatr təşkilatında bədii və inzibati məqsədləri uzlaşdırmaqla strateji idarəetmə həyata keçirmək, repertuar siyasətini və yaradıcılıq planlarını inkişaf strategiyasına uyğun qurmaq, teatrın uzunmüddətli inkişafını təmin edən strateji planlar hazırlamaq və tətbiq etmək;
- teatrın struktur bölmələri arasında koordinasiyanı təmin edərək, prioritetləri müəyyənləşdirmək, sənət və idarəetmə sahəsində məqsədyönlü, situasiyaya uyğun qərarlar qəbul etmək və bu qərarların tamaşaçı auditoriyasına və yaradıcı heyətə mümkün təsirlərini qiymətləndirmək;
- tamaşaların və mədəni layihələrin istehsal proseslərinin koordinasiyasına nəzarət etmək;
- teatrın cəmiyyətlə əlaqəsini gücləndirmək üçün innovativ təqdimat formaları və tamaşaçı ilə interaktiv kommunikasiya üsulları tətbiq etmək;
- beynəlxalq teatr əməkdaşlıqlarında iştirak etmək, qrant layihələri hazırlamaq və onları idarə etmək;
- teatr layihələrinin icra prosesini mərhələli şəkildə izləmək, bədii və inzibati baxımdan keyfiyyətə nəzarət mexanizmlərini tətbiq etmək, əldə olunan nəticələri təhlil edib təkmilləşdirici təkliflər hazırlamaq;
- teatr layihələrinin maliyyələşdirilməsi, büdcə planlaşdırılması və fondların cəlb olunmasına nəzarət etmək;
- tamaşa istehsalının yaradıcı və texniki proseslərini əlaqələndirmək;
- müəllif hüquqları və mədəniyyət sahəsinə dair hüquqi çərçivələrə əsaslanaraq teatr layihələrinin sənədləşməsini və müqavilə münasibətlərini təmin etmək.

**2.2.17 Muzey və qalereya menecmenti ixtisaslaşması üzrə**

- kolleksiyaları idarə etmək və konservasiya qaydalarına əməl edilməsinə nəzarət etmək;
- muzey və qalereyalar üçün layihələrin maliyyələşməsi ilə bağlı sənəd dövriyyəsini və sponsor əlaqələrini idarə etmək;
- rəqəmsal texnologiyaların tətbiqi ilə rəqəmsal sərgilərin təşkilinə nəzarət etmək;
- muzey və qalereya layihələrinin həyata keçirilməsində kurator, dizayner və digər sahə mütəxəssisləri ilə peşəkar əməkdaşlıq münasibətləri qurmaq və idarə etmək;
- muzey və qalereya ekspozisiyalarında və maarifləndirici fəaliyyətlərdə inklüzivlik prinsiplərinə (uşaqlar, əlillər, azsaylı xalqlar və s.) əməl edilməsinə nəzarət etmək;

**2.2.18 Kino və televiziya menecmenti ixtisaslaşması üzrə**

- kino və televiziya layihələrini (planlaşdırma, büdcələşmə, çəkiliş və postproduksiya) idarə etmək;
- kino və televiziya layihələrinə çəkiliş heyəti və aktyor heyəti cəlb etmək;
- kino və televiziya layihələrinin müxtəlif aspektlərinin sənaye standartlarına uyğunluğuna nəzarət etmək;
- kino və televiziya layihələri üçün maliyyə toplanmasını (fundraising) həyata keçirmək;
- kino və televiziya layihələrinin media kanalları vasitəsilə düzgün təşviqi üçün marketinq, PR və kommunikasiya komandaları ilə əməkdaşlıq etmək;

- kino və televiziya layihələrinin çəkilişi zamanı potensial təhlükə və risk məqamlarını öncədən nəzərə almaq və təhlükəsizlik tədbirlərinin icrasına nəzarət etmək;
- kino və televiziya layihələrinin distribyusiyasını birbaşa həyata keçirmək və ya nəzarət etmək;
- film istehsalında yeni texnologiyaların tətbiqi və istifadəsi üzrə mütəxəssisləri cəlb etmək;

**2.2.19 Audiovizual sahələr üzrə prodüserlik ixtisaslaşması üzrə**

- audiovizual layihələri (planlaşdırma, büdcələşmə, çəkiliş və postproduksiya) idarə etmək;
- film layihəsinin daxili və xarici bazara uyğunluğunu təyin etməklə istehsalata yararlılığını müəyyən etmək;
- film festivalları və platformalar üçün yayım strategiyaları hazırlamaq;
- film layihəsi üçün maliyyə toplanması (fundraising) və xərclərin idarə edilməsi işlərinə nəzarəti həyata keçirmək;
- audiovizual layihələrin ekspertizasını keçirmək;
- film çəkilişi ilə bağlı təhlükəsizlik tədbirlərinin icrasına nəzarət etmək;
- audiovizual məhsulun istehsalında texnoloji yeniliklərin tətbiq olunmasını təmin etmək;
- audiovizual layihələrlə bağlı ssenaridən ekrana qədər prosesi nəzarət etmək;

**2.2.20 Mədəniyyət menecmenti ixtisaslaşması üzrə**

- mədəniyyət sahəsində layihə idarə etmək;
- mədəniyyət siyasətinə uyğun strateji proqramlar hazırlamaq və onların həyata keçirilməsini təmin etmək;
- mədəniyyət sahəsində dəyişən sosial-iqtisadi və texnoloji çağırışlara uyğun yenilənmiş idarəetmə yanaşmalarını tətbiq etmək;
- elmi-tədqiqat nəticələrinə əsaslanmaqla mədəniyyət sahəsinə dair analitik rəy vermək;
- mədəniyyət sahəsinə təsir edən sosial, siyasi və iqtisadi amilləri təhlil edərək yeni konsepsiyalar formalaşdırmaq;
- mədəniyyətin yaradıcı sənaye, şəhərsalma, turizm və təhsil sahələri ilə kəsişmələrini nəzərə alaraq institusional əməkdaşlıq platformaları qurmaq;
- mədəniyyət sahəsində ictimaiyyətlə əlaqələri və maraqlı tərəflərlə münasibətləri idarə etmək;
- mədəniyyət siyasətində dövlət və cəmiyyət arasında körpü funksiyasına xidmət edən ictimai iştirak mexanizmləri tətbiq etmək;
- rəqəmsal platformalarda mədəniyyət məhsullarının istehsalını və yayımını idarə etmək;

**2.2.21 Enerji menecmenti ixtisaslaşması üzrə**

- günəş, külək, bioenerji, hidroenerji və batareya sistemlərinin texniki və iqtisadi səmərəliliyini qiymətləndirmək;
- enerji istehsalı və menecmenti sahəsində təhlükəsizlik və beynəlxalq standartların (ISO 50001) əsas tələblərini nəzərə ala bilmək;
- enerji istehsalı, təminatı və monitorinqi üçün rəqəmsal alətlərdən və texnologiyalardan istifadəyə nəzarət etmək;
- yeni enerji texnologiyalarının tətbiqi imkanlarını müəyyən etmək;
- enerjinin istehsalı, ötürülməsi və paylanması sisteminə dair rəy vermək;
- enerji bazarının strukturunu, qiymət dinamikasını və tənzimləyici mexanizmləri qiymətləndirmək;
- təşkilat səviyyəsində dekarbonizasiya hədəflərinə və maraqlı tərəflərin tələblərinə uyğun enerji strategiyalarında dəyişikliklər etmək;

- müxtəlif obyektlər üçün enerji səmərəliliyi tədbirləri hazırlamaq və onların iqtisadi-texniki əsaslandırmasını aparmaq;
- statistik və maşın öyrənməsi metodlarını tətbiq etməklə tələb, yüklənmə və qiymət proqnozları tərtib etmək;

**2.2.22 Səhiyyə menecmenti ixtisaslaşması üzrə**

- səhiyyə təşkilatlarında effektiv idarəetmə strategiyalarını formalaşdırmaq üçün son elmi araşdırmaları və müasir yanaşmaları inteqrasiya etmək;
- məhsuldar strategiyaları, siyasətləri və resurs idarəetməsini müəyyən etmək üçün sübuta əsaslanan yanaşmaları qiymətləndirmək və tətbiq etmək;
- mürəkkəb səhiyyə şəraitində effektiv şəkildə liderlik və idarə etmək, tədqiqata əsaslanan risk idarəetməsi və klinik idarəetmə keyfiyyət prosesləri vasitəsilə səhiyyə xidmətlərinin nəticələrini yaxşılaşdırmaq üçün inkişaf etmiş imkanları tətbiq etmək;
- cari nəzəri müzakirələr, texnikalar və təcrübələr əsasında səhiyyə xidməti və epidemioloji məlumatları araşdırmaq, təhlil və sintez etmək, səhiyyə xidməti strategiyalarını, layihələrini, siyasətlərini və proqramlarını planlaşdırmaq və qiymətləndirmək;
- müxtəlif kontekstlərdə səhiyyə xidmətinin idarəetmə problemlərini həll etmək, prioritetlərini, siyasətini, təcrübəsini formalaşdırmaq üçün müvafiq tədqiqat və tədqiqata əsaslanan metodları təfsir və tətbiq etmək;
- multidissiplinar iş üsullarını nümayiş etdirmək və səhiyyə xidmətlərinin nəticələrini artırmaq üçün komandada işləmək;
- yerli, milli və beynəlxalq şəraitdə səhiyyə xidməti mütəxəssisləri kimi məhsuldar fəaliyyət göstərməyə imkan verən inkişaf etmiş mədəni bilikləri və qlobal perspektivi tətbiq etmək.

**2.2.23 Qlobal menecment və siyasət ixtisaslaşması üzrə**

- milli və beynəlxalq səviyyədə siyasi, hüquqi və iqtisadi prosesləri təhlil edərək əsaslandırılmış qərarlar qəbul etmək;
- beynəlxalq müəssisələri effektiv idarə etmək, innovasiya və performans üçün strategiyalar hazırlamaq;
- tədqiqat metodları və kəmiyyət analizi alətlərindən istifadə edərək biznes və siyasət qərarlarını əsaslandırmaq;
- iqtisadiyyat, hüquq, siyasət, tarix və biznes sahələrindən əldə edilən bilikləri inteqrasiya edərək menecment problemlərinə yaradıcı və əsaslandırılmış həll yolları təqdim etmək;
- şirkətlərin beynəlxalq bazarlara çıxış imkanlarını qiymətləndirmək və buna dair effektiv strategiyalar hazırlamaq;
- fəaliyyəti ilə bağlı beynəlxalq hüquqla müəyyən edilmiş tələblərin icrasına nəzarət etmək.

**2.2.24 Əczaçılıq menecmenti ixtisaslaşması üzrə**

- əczaçılıq xidmətinin əlçatanlığı və keyfiyyətini ictimai ehtiyaclara uyğunlaşdırmaq;
- əczaçılıq müəssisəsinin daxili və xarici mühitinin təhlili əsasında yeni strateji hədəflər müəyyənləşdirmək və planlar hazırlamaq;
- əczaçılıq müəssisəsində resursların effektiv və səmərəli istifadəsinin təhlili əsasında xərcləri optimallaşdırmaq və maliyyə sabitliyini təmin etmək;
- əczaçılıq sahəsində ticarət zəncirinə nəzarət etməklə alternativ tədarük imkanları formalaşdırmaq;
- əczaçılıq müəssisəsində rəqəmsal texnologiyaların tətbiqinə nəzarət etmək və effektivliyin yüksəldilməsi məqsədilə yeni imkanları müəyyən etmək;

- əczaçılıq müəssisələrində standart əməliyyat prosedurları (SOP) ilə bağlı aparılan işlərə nəzarət etmək;
- əczaçılıq bazarının seqmentləşdirilməsini və hədəf auditoriyanı təyin etməklə müəssisənin rəqabət qabliyyətinin yüksəldilməsi üçün effektiv marketinq strategiyaları tətbiq etmək;
- əczaçılıq müəssisələrinin strateji məqsədlərinə və uğurlu fəaliyyətinə nail olmaq üçün təşkilatın struktur təkmilləşdirilməsi tədbirlərini həyata keçirmək;
- istehlakçılara yüksək keyfiyyətli əczaçılıq yardımının göstərilməsi istiqamətində müştəri yönümlü xidmət konsepsiyası yaratmaq və tətbiq etmək;
- əczaçılıq sahəsində qanunvericiliklə müəyyən edilmiş qaydaların və normativlərin tətbiqinə nəzarət etmək.

**2.2.25 Mülki aviasiyanın menecmenti ixtisaslaşması üzrə**

- mülki aviasiya sektorunda dayanıqlı biznes modelləri və innovasiya strategiyalarını tətbiq etmək;
- aviasiya əməliyyatlarını (uçuş planlaşdırılması, yer xidmətləri, logistika) idarə etmək;
- hava nəqliyyatında sərnişin və yük daşımaların dəyər zəncirini idarə etmək;
- aviasiyada idarə sisteminin təkmilləşdirilməsinə dair yanaşma tətbiq etmək;
- aviasiyada dəyişən biznes mühitinə uyğunlaşmanı təmin etmək və yenilikləri idarə etmək;
- sərnişin davranışları, bazar meylləri və aviasiya xidmətlərinə olan tələbatı təhlil etmək və xidmətlərə dair marketinq strategiyaları hazırlamaq;
- aviaşirkət və aeroportların brend nüfuzunu artıracaq müxtəlif kompaniyalar təklif etmək və onları əsaslandırmaq;
- mülki aviasiyada əməliyyat riskləri, təhlükəsizlik, sərnişin axınları və ekoloji təsirlər kimi məsələlərin həllinə nəzarət etmək;
- mülki aviasiya sahəsində qanunvericiliklə müəyyən edilmiş qaydaların və normativlərin tətbiqinə nəzarət etmək.

**2.2.26 Əqli mülkiyyətin idarə edilməsi ixtisaslaşması üzrə**

- əqli mülkiyyət obyektlərinin idarə edilməsi ilə bağlı strateji qərarlar qəbul etmək;
- yaradıcılıq fəaliyyəti nəticələrinin uçotu mexanizmlərini təkmilləşdirmək;
- əqli mülkiyyətin idarə edilməsi ilə bağlı texnoloji innovasiyaların tətbiqinə nəzarət etmək;
- yeni texnologiyaların yaradılması, kommersiyalaşdırılması və transferi prosesini idarə etmək;
- əqli mülkiyyət sahəsində layihələrin keyfiyyət və təhlükəsizlik standartlarına uyğun icrasına nəzarəti təmin etmək;
- əqli mülkiyyət obyektlərinə əsaslanan startapların layihələndirilməsinə və icrasına nəzarət etmək;
- müəllif hüquqlarının qorunması sahəsində prosedur tədbirlərinin icrasına nəzarət etmək;
- əqli mülkiyyətlə bağlı qanunvericiliyin tələblərinin implementasiyasını təmin etmək.

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Strateji menecment | Magistr ali elmi-ixtisas | 2 il | 120 |

| | | | |
|---|---|---|---|
| İnnovasiya menecmenti | Magistr ali elmi-ixtisas | 2 il | 120 |
| Layihə menecmenti* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| İdman menecmenti | Magistr ali elmi-ixtisas | 2 il | 120 |
| Kənd təsərrüfatı və qida sistemlərinin menecmenti | Magistr ali elmi-ixtisas | 2 il | 120 |
| Təhsil menecmenti | Magistr ali elmi-ixtisas | 2 il | 120 |
| Risk menecmenti | Magistr ali elmi-ixtisas | 2 il | 120 |
| İnsan resursları menecmenti | Magistr ali elmi-ixtisas | 2 il | 120 |
| İnformasiya menecmenti | Magistr ali elmi-ixtisas | 2 il | 120 |
| Korporativ menecment | Magistr ali elmi-ixtisas | 2 il | 120 |
| Rəqəmsal menecment* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| İstehsal və əməliyyat menecmenti | Magistr ali elmi-ixtisas | 2 il | 120 |
| Turizm menecmenti* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Qonaqpərvərlik sənayesinin idarə edilməsi* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Musiqi menecmenti* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Teatr menecmenti* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Muzey və qalereya menecmenti* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Kino və televiziya menecmenti* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Audiovizual sahələr üzrə prodüserlik* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Mədəniyyət menecmenti | Magistr ali elmi-ixtisas | 2 il | 120 |
| Enerji menecmenti* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Səhiyyə menecmenti* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Qlobal menecment və siyasət | Magistr ali elmi-ixtisas | 2 il | 120 |
| Əczaçılıq menecmenti* | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |
| Mülki aviasiyanın menecmenti | Magistr ali elmi-ixtisas | 2 il | 120 |
| Əqli mülkiyyətin idarə edilməsi | Magistr ali | 2 il | 120 |

| | | | |
|---|---|---|---|
| | elmi-ixtisas | | |
| Menecment (sahələr üzrə) [1] | Magistr ali elmi-ixtisas | 1,5/2 il | 90/120 |

3.2. Təhsil proqramı ixtisasdan (ixtisaslaşmadan) asılı olaraq 90 (1,5 il) və ya 120 (2 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti | |
|---|---|---|---|
| 1 | **Tədqiqat metodları[2]**<br>Bu fənn kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına diqqət yetirir. Fənn çərçivəsində tədqiqat səriştələri, kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edilməsi, verilənlərin araşdırılması, təhlil edilərək təqdim edilməsi kimi keyfiyyətin aşılanmasını nəzərdə tutur. | 0 | 6 |
| 2 | **Akademik yazı və etika**<br>Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir. | 6 | 6 |
| 3 | **Layihələrin idarə olunması[3]**<br>Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələlər ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. mövzular əhatə olunmalıdır. | 6 | 0 |
| 4 | **Tədqiqat analitikası[1]**<br>Bu fənnin tədrisi məlumat təhlili prosesi, məlumat növləri, məlumatların toplanma mənbələri, məlumat təhlili üzrə strategiyanın qurulması, məlumatların təhlil üçün hazırlanması və təmizlənməsi, təhlil üçün məlumatların sistemləşdirilməsi, məlumatların vizuallaşdırılması, sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ilə tanışlıq ("Excel", "SPSS", "Stata", "R", "MAXQDA", "Matlab", "Python" və s. kimi), ixtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillərin aparılması (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, | 0 | 6 |

[1] Qəbul aparılmır. Yalnız xarici kvalifikasiyaların tanınması zamanı istifadə olunur.
[2] Bu fənn magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.
[3] Bu fənn magistrlik dissertasiyası ilə tamamlanmayan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.

| | | | |
|---|---|---|---|
| | eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) və təhlillərin əsasında müvafiq rəylərin hazırlanmasını nəzərdə tutur. | | |
| 5 | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər[4]** ixtisaslaşmadan asılı olaraq buraya daxil edilən fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisaslaşmanın təhsil proqramında öz əksini tapır. | 72 | 72 |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər[5]** Müvafiq fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada ixtisaslaşmadan asılı olaraq müəyyən edilir və həmin ixtisaslaşmanın təhsil proqramında əksini tapır. | | |
| | **Təcrübə** | | |
| ... | **Elmi-pedaqoji təcrübə** | 6 | 6 |
| ... | **Elmi tədqiqat təcrübəsi[6]** | 0 | 6 |
| | **Dissertasiya işi** | | |
| ... | **Magistrlik dissertasiyası[7]** | 0 | 18 |
| | **CƏMİ** | **90** | **120** |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

---

[4] Burada "fənlər" dedikdə fənlərlə yanaşı, layihələr (eləcə də "Capstone" layihəsi), yaradıcılıq işi, laboratoriya işləri və digər aidiyyəti tədris fəaliyyətləri (olduğu təqdirdə) başa düşülür. Bu fənlər akademik heyətin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir və müvafiq ixtisaslaşma üzrə qəbul olan təhsilalan üçün məcburi xarakter daşıyır. Bu bölmədə minimum 4 fənn olmalıdır.

[5] Burada "fənlər" dedikdə fənlərlə yanaşı, layihələr (eləcə də "Capstone" layihəsi), yaradıcılıq işi, laboratoriya işləri və digər aidiyyəti tədris fəaliyyətləri (olduğu təqdirdə) başa düşülür. Bu fənlər akademik heyətin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Sözügedən fənlər müəyyən edilən zaman əmək bazarının təklifləri də nəzərə alınır və bu məqsədlə ali təhsil müəssisələri və əmək bazarı nümayəndələrindən ibarət işçi qrupunun yaradılması tövsiyə olunur. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər təhsilalanlar üçün seçmə xarakter daşımalı, eləcə də təhsilalanların xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır. Bu bölmədə minimum 3 fənn olmalıdır.

[6] Bu təcrübə növü magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.

[7] Magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslar (ixtisaslaşmalar) üçün nəzərdə tutulmuşdur. Magistrlik dissertasiyasının məzmununa, yazılmasına, təqdim edilməsinə və müdafiəsinə qoyulan tələblər Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Təhsil proqramının tədris, təlim və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

- professor-müəllim və tədris köməkçi heyəti;
- zəruri avadanlıqla təchiz olunmuş auditoriya;
- kompüter otağı və internetdən istifadə imkanları;
- elmi-tədris laboratoriyası;
- təcrübələrin keçirilməsi üçün baza müəssisələri;
- elmi kitabxana;
- akademik və peşəkar elektron məlumat bazalarına çıxış imkanı.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur, elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər;

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. **7004008 - Menecment** proqramı üzrə məzunlar dövlət və özəl sektorda aşağıdakı peşələrdə işləyə biləcəklər:

**Strateji menecment ixtisaslaşması üzrə**

- Strategiya üzrə menecer;
